## *ALİ MƏCLİSİN İCLASI*

*9 fevral 2026-cı il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli Elşad müəllim!

Hörmətli Cabbar müəllim və media nümayəndələri, hamınızı salamlayıram!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının ikinci iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 42 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.12 dəq.) |
|---|---|
| İştirak edir | 42 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Bildiyiniz kimi, bu gün Naxçıvan Muxtar Respublikasının yaranmasının 102 ili tamam olur.

Fürsətdən istifadə edib muxtar respublika əhalisini və ictimaiyyətini təbrik edir, Naxçıvan Muxtar Respublikasının inkişafı üçün fəaliyyət göstərən hər kəsə uğurlar arzulayıram.

*(Alqışlar.)*

Hörmətli həmkarlar!

Bugünkü iclasın gündəliyində 2 məsələ nəzərdə tutulsa da, əlavə olaraq Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin təqdimatına baxılması məsələsi də gündəliyə daxil edilmişdir. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat gündəliyin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Gündəlikdə duran birinci məsələ Cabbar Hafiz oğlu Musayevin Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin təqdimatına baxılmasıdır.

Bildiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 37-ci maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Baş nazirini Azərbaycan Respublikasının Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təyin edir.

Müvafiq Konstitusiyanın 32-ci maddəsinin I hissəsinin 3-cü bəndinə əsasən Ali Məclisin sədri Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi üçün Azərbaycan Respublikası Prezidenti tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Ali Məclisə təqdim edir.

Buna müvafiq olaraq təqdimatı diqqətinizə çatdırıram:

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə.

Azərbaycan Respublikası Konstitusiyasının 140-cı maddəsinin II hissəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə Cabbar Hafiz oğlu Musayevin namizədliyini təqdim edirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

6 fevral 2026-cı il

Müzakirə olunan məsələ ilə bağlı qərar layihəsi hazırlanmışdır.

"C.H.Musayevin Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 37-ci maddəsini və 25-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Cabbar Hafiz oğlu Musayev Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilsin.

Deputatlardan kim "C.H.Musayevin Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.16 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat "C.H.Musayevin Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

İndi isə çıxış etmək üçün söz Naxçıvan Muxtar Respublikasının yeni Baş naziri Cabbar Musayevə verilir.

Buyurun, Cabbar müəllim!

**C.Musayev,** *Naxçıvan Muxtar Respublikasının Baş naziri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar!

Öncəliklə Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri, möhtərəm cənab İlham Əliyevə mənə yüksək etimad göstərərək Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təqdim etdiyinə görə dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan Respublikası müstəqil, güclü və qalib bir dövlət kimi öz tarixi inkişaf yolunda mühüm mərhələyə qədəm qoymuşdur. Bu böyük uğurların əsasında Azərbaycan dövlətçiliyinin memarı Ümummilli Lider Heydər Əliyevin ideyaları, siyasi irsi və əbədiyaşar dövlətçilik məktəbi dayanır. Ulu Öndərin müəyyən etdiyi strateji kurs bu gün möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilir.

Prezident İlham Əliyevin müdrik rəhbərliyi və uzaqgörən siyasəti nəticəsində ölkəmiz tarixi zəfər qazanmış, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa edilmiş, regionda yeni siyasi-iqtisadi və təhlükəsizlik reallıqları formalaşdırılmışdır. Uğurla həyata keçirilən hərbi, diplomatik, sosial-iqtisadi, humanitar və institusional islahatlar Azərbaycanın gücünü, dayanıqlılığını və beynəlxalq nüfuzunu daha da artırmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli və ardıcıl siyasəti nəticəsində ölkəmiz regionda və dünyada sabitliyin, təhlükəsizliyin və inkişafın etibarlı tərəfdaşına çevrilmişdir. Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolu, çoxtərəfli əməkdaşlıq təşəbbüslərində fəal iştirakı və sülh gündəliyinə verdiyi töhfələr dövlətimizin diplomatik uğurlarının bariz nümunəsidir. 8 avqust 2025-ci il tarixində ABŞ-nin Vaşinqton şəhərində keçirilmiş üçtərəfli yüksək səviyyəli görüş isə ölkəmizin regional və qlobal proseslərdə artan rolunu bir daha nümayiş etdirmiş, Azərbaycanın sülhə, əməkdaşlığa və qarşılıqlı etimada verdiyi töhfələrin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini təsdiqləmişdir.

Ölkə başçısının təşəbbüsü ilə reallaşdırılan strateji layihələr, o cümlədən Zəngəzur dəhlizinin açılması istiqamətində görülən işlər Azərbaycanın nəqliyyat, logistika imkanlarını genişləndirməklə yanaşı, ölkəmizin geosiyasi və iqtisadi mövqelərini daha da möhkəmləndirir, eyni zamanda Naxçıvan Muxtar Respublikası ilə ölkənin əsas hissəsinin etibarlı və davamlı əlaqəsinin təmin olunmasına xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi, infrastrukturun müasirləşdirilməsi, əhalinin rifah halının yüksəldilməsi və həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması, nəqliyyat kommunikasiya imkanlarının genişləndirilməsi səhiyyə, təhsil, mədəniyyət və sosial xidmət sahələrinin inkişafı üzrə imzalanmış fərman və sərəncamlar Naxçıvanın dayanıqlı və uzunmüddətli inkişafı üçün etibarlı zəmin formalaşdırmış, bu gün qədim diyarın ölkənin ümumi inkişaf strategiyasında rolunu daha da möhkəmləndirmişdir.

Hörmətli deputatlar!

Sondan muxtar respublika rəhbərliyinə və təqdimatı yekdilliklə qəbul etdiyinizə görə sizə dərin təşəkkürümü bildirir, ölkə başçısının fərman və sərəncamlarından irəli gələn vəzifələri yüksək məsuliyyət, peşəkarlıq və ləyaqətlə icra edəcəyəm.

Təşəkkür edirəm!

*(Alqışlar.)*

**Sədrlik edən.** Hörmətli Cabbar müəllim, bundan sonrakı fəaliyyətinizdə uğurlar arzu edirəm.

Gündəlikdə duran ikinci məsələ “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

“Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi hazırlanmış və deputatlara paylanılmışdır.

Layihə Hüquq siyasəti komitəsinin 7 fevral 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, eləcə də Ali Məclis Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir.

Qanun layihəsi barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 1 maddəsində dəyişikliyin edilməsi nəzərdə tutulur.

Dəyişikliyə əsasən, “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 10.1-ci maddəsinə “bu Qanunun” sözlərindən əvvəl “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 2-ci maddəsinin və” sözləri əlavə edilir.

Dəyişikliklə “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 10.1-ci maddəsinin “Normativ hüquqi aktların kolliziyası həll edilərkən “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 2-ci maddəsinin və bu Qanunun 2-ci maddəsinin tələbləri nəzərə alınır” kimi redaktə edilməsi təklif edilir.

Layihənin hazırlanmasındakı əsas məqsəd “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 10.1-ci maddəsində hüquqi kolliziyaların həlli zamanı “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun normativ göstərişinə də istinadın verilməsidir.

Məlum olduğu kimi, qanunvericiliklə normativ hüquqi aktların kolliziyasının həlli qaydalarının müəyyən edilməsinin əhəmiyyəti çox böyükdür və bu, hüquq sisteminin sağlam işləməsi üçün əsas rol oynayır.

Ümumilikdə, həm ədalətli qərarların qəbulunun təmin edilməsi, hüquq sistemində ardıcıllığın yaranması, hüququn effektivliyinin artırılması, vətəndaşların hüquq və azadlıqlarının qorunması, həm də qanunvericiliyin iyerarxiyasının qorunması baxımından bu institutun rolu əvəzsizdir. Bu baxımdan həmin maddədə dəyişikliklərin edilməsinin çox böyük əhəmiyyəti vardır.

Ümumiyyətlə “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun normativ hüquqi aktların hüquqi qüvvəsindən bəhs edən 2-ci maddəsində həm normativ hüquqi aktların ümumi hüquqi qüvvəsi ilə bağlı məsələlər tənzimlənir, həm də Konstitusiyanın 148-ci maddəsində bəhs edilən Naxçıvan Muxtar Respublikası Konstitusiyası, qanunları və Nazirlər Kabinetinin qərarları, eyni zamanda Naxçıvan Muxtar Respublikasının qanunvericilik sisteminin ölkənin qanunvericilik sisteminə uyğunlaşdırılması ilə bağlı tələblər mövcuddur.

Bundan əlavə, qeyd etdiyimiz 2-ci maddədə həm normativ hüquqi aktların qüvvəsindən bəhs edən Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinə, eyni zamanda beynəlxalq hüquqi aktların qüvvəsindən bəhs edən 151-ci maddəsinə, ümumilikdə, istinad edilməklə birlikdə normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması ilə bağlı “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikası Qanununa həmin normanın daxil edilməsilə təkmilləşdirmənin aparılması çox vacibdir.

Bu gün normativ sənədlərin sayının kifayət qədər çox olmasını nəzərə alsaq, onların tərtibi zamanı müəyyən sənədlərin bir-biri ilə kolliziyasının gözdən qaçma ehtimalı çox yüksəkdir. Bu mənada normativ sənədlərdə kolliziyanın aradan qaldırılması yollarının əhəmiyyətinin böyüklüyü nəzərə alındığı zaman bu maddədə edilən dəyişiklik olduqca əhəmiyyətlidir.

“Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 7 fevral 2026-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsində baxılmışdır. Komitənin iclasında qanun layihəsi geniş müzakirə edilmiş, rəy layihəsi hazırlanmış, səsvermə keçirilmiş və deputatlar tərəfindən yekdilliklə qəbul edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun müddəalarına uyğunlaşdırmanın təmin edilməsi və normativ hüquqi aktların kolliziyasının həll edilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır.

“Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi komitə üzvlərinə paylanılmış, komitənin 7 fevral 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir. Qanun layihəsi “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim oluna bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Ali Məclisin Daxili Nizamnaməsinin 18.1-ci maddəsinə əsasən Ali Məclisdə uyğunlaşdırma məqsədi ilə hazırlanmış, həmçinin texniki xarakter daşıyan dəyişiklikləri nəzərdə tutan qanun layihələrinə bir oxunuşda baxılır.

Deputatlardan kim “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi hazırlanmış və deputatlara paylanılmışdır.

Layihə Hüquq siyasəti komitəsinin 7 fevral 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, eləcə də Ali Məclis Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir.

Qanun layihəsi barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikası Qanununda 1 maddə üzrə dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Dəyişikliyə əsasən, “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 2-ci maddəsinə ikinci halda “Konstitusiyasından” sözündən sonra “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunundan” sözləri əlavə edilir.

Dəyişikliklə Qanunun 2-ci maddəsi təklif edilən redaksiyada aşağıdakı kimi olacaqdır: Deputatın etik davranış qaydaları haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasından, “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunundan, “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunundan, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsindən, bu Qanundan və bu Qanuna uyğun hazırlanmış digər normativ hüquqi aktlardan ibarətdir.

Qanun layihəsininin hazırlanmasında məqsəd qanunla müəyyən olunan etik davranış qaydaları haqqında qanunvericiliyə “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun da daxil edilməsi ilə müvafiq hüquqi aktın təkmilləşdirilməsidir.

Məlumat üçün qeyd edim ki, “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 10.1-ci maddəsinə görə vəzifəli şəxslər korrupsiya ilə əlaqədar hüquqpozmalara görə qanunvericiliklə müəyyən edilmiş qaydada intizam, mülki, hüquqi, inzibati və ya cinayət məsuliyyəti daşıyırlar. Bu müddəanın qanunvericiliyə daxil edilməsi bu mənada çox vacibdir.

Eyni zamanda dəyişiklik “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun tələbələrinə uyğunlaşdırılması məqsədinə xidmət edir. Belə ki, analoji müddəa “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində də öz əksini tapmışdır.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 7 fevral 2026-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsində baxılmışdır. Komitə iclasında qanun layihəsi barədə ətraflı məlumat verilmiş, layihə iclas iştirakçılarının müzakirəsinə təqdim olunmuşdur. Komitə iclasında rəy layihəsi hazırlanmış, səsvermə keçirilmiş və rəy qəbul edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu ilə müəyyən edilmiş etik davranış qaydalar haqqında qanunvericiliyin dəqiqləşdirilməsi məqsədi ilə hazırlanmışdır.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi komitə üzvlərinə paylanılmış, komitənin 7 fevral 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir. Qanun layihəsi “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim oluna bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Ali Məclisin Daxili Nizamnaməsinin 18.1-ci maddəsinə əsasən Ali Məclisdə uyğunlaşdırma məqsədi ilə hazırlanmış, həmçinin texniki xarakter daşıyan dəyişiklikləri nəzərdə tutan qanun layihələrinə bir oxunuşda baxılır.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
| --- | --- |
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!